**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**SAMİR İMANVERDİ oğlu MAHMUDOV**

# ƏRZAQ BAZARINDA RƏQABƏT MÜHİTİ VƏ ONUN QORUNMASI PROBLEMLƏRİ

**5312.01 – «Sahə iqtisadiyyatı»**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı - 2017**

Dissertasiya işi Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunda yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Sakit Məmədi oğlu Yaqubov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Pəri Əmirəhməd qızı Həsənova**

iqtisad üzrə fəlsəfə doktoru,dosent
**Qalib Bəhram oğlu Hacıyev**

Aparıcı Təşkilat: **Azərbaycan Dövlət Aqrar Universitetinin "Menecment və aqrar marketinq" kafedrası**

Müdafiə "___" _____________ 2017-ci il tarixdə saat _____-da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.018 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.
Ünvan: AZ 1148, Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi, 23.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" _____________ 2017-ci ildə göndərilmişdir.

**FD. 02.018 birləşdirilmiş dissertasiya**
**şurasının elmi katibi, i.ü.f.d.** **H.S.Şamilova**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Hazırda bazar iqtisadiyyatı şəraitində qeyri-neft sektorunun inkişaf etdirilməsində ölkəmizdə ən prioritet məsələdir. Xüsusi ilə də ərzaq təhlükəsizliyinin təmin olunması baxımından, ərzaq bazarının inkişaf etdirilməsi və onun rəqabət mühitinin formalaşdırılması vacib məsələdir. Bazarda iştirak edən subyeкtlər, xüsusən də istehsalçı və istehlakçı arasında olan daimi qarşılıqlı əlaqədə və eyni adlı və ya eyni istiqamətli alternativ məhsul istehsalçıları bir-birinə təsir edərək fəaliyyət göstərir ki, bu da ümumilikdə rəqabət mühitinin yaranmasını şərtləndirir.

Qeyd edək ki, iqtisadi islahatların həyata keçirilməsi nəticəsində iqtisadiyyatın hər bir sahəsində olduğu kimi aqrar sahədə də müəssisə və təsərrüfatlar üç mülkiyyət formasında (dövlət, bələdiyyə və şəxsi mülkiyyət) fəaliyyət göstərirlər. Kənd təsərrüfatı müəssisələri və bu sahənin istehsal etdiyi məhsulların emalı müəssisələri demək olar ki, tam özəl mülkiyyətdə cəmlənmişdir. Ölkədə gedən islahatlar dövründən kənd təsərrüfatı məhsulları istehsalının 95-98%-i özəl bölmənin payına düşür. İslahatların ilk illərində istehsal olunan məhsulun tam sahibi olmaq kənd təsərrüfatına olan marağı artırmış və kənd təsərrüfatında yaranmış böhranlı vəziyyətdən çıxış üçün əlverişli şərait yaranmışdır. Yeni təsərrüfat formalarının fəaliyyəti və əldə etdiyi nəticələr təqdirə layiq olsalar da qarşıya həlli vacib olan ciddi problemlər çıxmışdır. Bu problemlərin biri də ərzaq bazarında və bütovlükdə aqrar iqtisadiyyatda azad rəqabət mühütinin formalaşması və onun qorunmasıdır.

İqtisadi islahatlar nəticəsində ixtisaslaşmış təsərrüfatların bazasında yaradılan müxtəlif təsərrüfat formaları istehsal istiqamətlərini sərbəst şəkildə müəyyən etdiyindən yeni yaranmış təsərrüfatların fəaliyyətlərində çoxlu və ciddi problemlər meydana gəlməyə başlamışdı. Ölkədə hansı məhsulun nə qədər həcmdə istehsalı, istehsal olunan məhsulun hansı bazara nə vaxt, nə qədər və necə təqdim olunması, alıcıların seçilməsi, pərakəndə və topdan satış kanallarının müəyyən edilməsi və s. məsələlərdə yaranmış problemlər təsərrüfatların inkişafında və sahibkarlığın formalaşmasında ciddi maneələr yaratmışdır. Yeni yaradılmış təsərrüfatların istehsal etdiyi məhsulun bazara sərbəst şəkildə çıxarılması təmin olunsa da, onların rəqabət qabiliyyətli olmaması bir sıra problemlər yaratmışdır.

Ərzaq bazarında rəqabət mühüti istehsal istiqamətindən asılı olaraq bir-birindən kəskin fərqlənir. Belə ki, bazara kənd təsərrüfatında istehsal olunan ərzaq məhsulları birbaşa, onların emalından alınan qida məhsulları isə istehsalçıları tərəfindən təqdim olunur ki, bu da istehlak olunan ərzaq və qida məhsullarının rəqabətə davamlılığının müxtəlif olması səbəbi ilə ərzaq

bazarında rəqabət mühitinin qorunmasına fərqli yanaşmaların zəruri olduğunu göstərir.

Kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətliliyinin yüksəldilməsi üçün istehsal xərclərinin azaıdılması və keyfiyyətinin artırılması əsas mühüm şərtlərdən hesab olunur. Bu, həm məhsulun daxili bazarda rəqabət mühitinin istehsalçının xeyrinə dəyişməsinə səbəb olur və həm də xarici bazarlara ixrac potensialının artmasına olan marağı daha da artırır.

Onu da qeyd edək ki, haqsız rəqabət haqqında qanunun olmasına baxmayaraq, həmin qanunun daxili bazarın tənzimlənməsində oynadığı rolunun yetərli olmaması oynayan rəqabət haqqında qanun olmadığından sağlam rəqabət mühütinin formalaşmasında ciddi problemlər yaranmışdır.

Məhz bu baxımdan "Ərzaq bazarında rəqabət mühiti və onun qorunması problemləri" mövzusunda tədqiqat işi aktual bir mövzuya həsr edilmişdir.

Yuxarıda qeyd edilənlər seçilən mövzunun aktuallığını şərtləndirir, tədqiqatın nəzəri və praktiki əhəmiyyətini əsaslandırmış olur.

**Problemin öyrənilmə vəziyyəti.** Mövcud problem bir çox elmi nəzəriyyə və baxışlarda öz əksini tapmışdır. İqtisadi ədəbiyyatı nəzərdən keçirdiyimizdə, bu mövzuda bir çox təlim və nəzəriyyələrin işlənib hazırlandığını görmək olar.

İstehsalın rəqabət- qabiliyyətliliyi problemi xarici ölkə alimlərindən M.Porter, X.Devis, K.Praxalad, A.Ruqman, İ.N.Qerçikova, M.İ.Qelvanovskiy, V.V.Kuznetsov, N.A.Popov, P.M.Lukaçyov və başqalarının tədqiqatlarında diqqətlə araşdırılmışdır. Bundan başqa, bazar iqtisadiyyatı şəraitində rəqabət mühitinin formalaşması, istehsalçılar, istehlakçılar arasında rəqabətin aparılması və daxili bazarda rəqabət mühitinin tənzimlənməsi istiqamətində yaranmış problemlər Azərbaycanın görkəmli iqtisadçı alimləri Z.A.Səmədzadə, S.V.Salahov, Ə.Ç.Verdiyev, S.M.Yaqubov, İ.H.İbrahimov, İ.Ş.Qarayev, H.A.Xəlilov, B.X.Ataşov, İ.H.Alıyev, R.Ə.Balayev, İ.V.Əhmədov, E.Ə.Quliyev, İ.M.Xeyirxəbərov, P.Ə.Həsənova, S.B.Əliyev, R.Z.Hüseyn, Q.B.Hacıyev və başqaları tərəfindən tədqiq olunmuşdur.

Lakin bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən yerli sahibkarlarımızın rəqabətqabiliyyətliyi, daxili bazarın qorunması və tənzimlənməsi kompleks şəkildə öyrənilməmişdir. Məhz bu boşluq dissertasiya işinin mövzusunun seçilməsini şərtləndirmiş, tədqiqatın məqsədini və vəzifələrini müəyyən etmişdir.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi ərzaq bazarında rəqabət mühitinin öyrənilməsi və onun tənzimlənməsi yollarını müəyyən etmək, rəqabətin formalarını araşdırmaq və bu mühitin

sahibkarlığın inkişafına təsirini tədqiq etmək, eyni zamanda ərzaq bazarında mövcud olan rəqabətin məhsul istehsalına, onun inkişaf yollarına təsirini araşdırmaqdan ibarətdir.

Tədqiqatın qarşıya qoyduğu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi məqsədə uyğun hesab olunmuşdur:

- rəqabət mühitinin mahiyyəti və xarakterik xüsusiyyətlərinin təhlili;
- rəqabət mühitinə təsir edən amillərin müəyyən edilməsi;
- ərzaq bazarında rəqabət mühitinin mövcud vəziyyətinin tədqiqi;
- rəqabət mühitinin tənzimlənməsinin mövcud vəziyyətinin tədqiqi;
- iqtisadi inhisarçılığın rəqabət mühitinə təsirinin araşdırılması;
- ərzaq bazarında rəqabət mühitinin yaxşılaşdırılması istiqamətlərinin müəyyən edilməsi;
- rəqabət mühitinin iqtisadi vasitələrlə təkmilləşdirilməsi yollarının müəyyən edilməsi;
- aparılan elmi tədqiqatdan əldə edilən nəticələr əsasında müvafiq təklif və tövsiyyələrin hazırlanması.

**Tədqiqatın obyekti kimi** Azərbaycan Respublikasındakı ərzaq bazarı, mülkiyyət formasından asılı olmayaraq ölkədə fəaliyyət göstərən təsərrüfatlar seçilmişdir.

**Tədqiqatın predmetini** ərzaq bazarında rəqabət mühitinin formalaşması amilləri və onun tənzimlənməsi mexanizminin öyrənilməsi təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsaslarını** iqtisad elminin görkəmli alimlərinin sosial-iqtisadi inkişaf nəzəriyyələri, mülahizələri, Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilən qanunlar və digər normativ hüquqi sənədlər təşkil edir. Tədqiqat zamanı qruplaşdırma, statistik təhlil, müqayisə, müşahidə və riyazi üsullardan istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası.** Dissertasiyada müxtəlif mənbələrə müraciət və istinad edilmişdir. Mövzu ilə bağlı müxtəlif informasiya bülletenlərindən, eyni zamanda Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin illik hesabatları və bülletenlərindən, digər müvafiq komitə və təşkilatların məlumatlarından, Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun müvafiq şöbələrinin illik hesabatları, müxtəlif bazarlardan və müəssisələrdən toplanmış məlumat xarakterli praktiki sənədlərindən, rəsmi internet saytlarından, müxtəlif səviyyəli elmi konfransların materiallarından geniş istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- ərzaq bazarında rəqabət mühitinin yaxşılaşdırılmasının mövcud şəraitə uyğun forma və metodları müəyyən edilmişdir;
- bazar iqtisadiyyatı şəraitində rəqabət mühitinə mənfi təsir edən amillər araşdırılmış və onların aradan qaldırılması yolları göstərilmişdir;
- ərzaq bazarında azad rəqabət mühitinin tənzimlənməsi üçün inhisarçılığın qarşısının alınması yolları göstərilmişdir;
- sağlam rəqabət mühitinin qorunmasına təsir edən amillər müəyyən edilmişdir;
- sağlam rəqabət mühitinin istehsalın inkişafında və sahibkarlığın formalaşmasında rolunu artırmaq üçün iqtisadi vasitələrlə tənzimlənməsi yolları göstərilmişdir;
- azad rəqabət mühitinin qorunmasında dövlət tənzimlənməsi yolları müəyyən edilmiş və təkmilləşdirilməsi üzrə elmi cəhətdən əsaslandırılmış təkliflər hazırlanmışdır.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Dissertasiya işinin nəticələrinin daxili bazarın qorunmasında, azad rəqabət mühitinin yaradılmasında və təkmilləşdirilməsində, rəqabətdə iqtisadi monopoliyanın aradan qaldırılmasında və bu amillərin müqabilində istehsalın artırılmasına, sahibkarlığın inkişafına və formalaşmasına yönəlmiş tədbirlərin həyata keçirilməsində öz əksini tapır.

**Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə edilməsi.** Dissertasiya işinin əsas müddəaları və nəticələri Bakı şəhərində keçirilən Az.Res.K.T.N.A.E.M. Az.E.T.K.T.İ. və T.İ. A.E.T.K.T.İ. və T.İ. 50 illik yubileyinə həsr olunmuş "Aqrar iqtisadiyyatin aktual problemləri" mövzusunda Beynəlxalq Elmi-Praktik Konfransın (Bakı, 2012) materiallarında, eyni zamanda "Ərzaq bazarında rəqabət mühitinin formalaşdırılması" (Bakı, 2012), "Улучшение условий свободной конкуренции на продовольственном рынке" (Moskva, 2013), "Rəqabət mühitinin iqtisadi vasitələrlə tənzimlənməsi" (Bakı, 2013), "Daxili ərzaq bazarinda rəqabət mühitinin dövlət tənzimlənməsinin istiqamətləri" (Bakı, 2014) və s. elmi məqalələrdə öz əksini tapmışdır. Tədqiqat nəticəsində ümumi həcmi 1,4 ç.v. olan 7 adda elmi məqalə və tezis dərc edilmişdir. Dissertasiya işinin əsas nəticələri Quba Regional Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzində istifadə üçün qəbul edilmişdir. (arayış №47/16, 25.05.2016)

**Tədqiqatın quruluşu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş 88 ədəbiyyat siyahısı olmaqla, 135 səhifəni əhatə edir. Dissertasiya işində 19 cədvəl, bir sxem verilmişdir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, predmeti və obyekti, informasiya bazası, elmi yeniliyi, təcrübi əhəmiyyəti əsaslandırılmış, tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə olunmasına dair məlumat verilmişdir.

Dissertasiya işinin **birinci fəsli "Ərzaq bazarında rəqabət mühitinin tənzimlənməsinin nəzəri əsasları"** adlanır. Bu fəsildə ərzaq bazarında rəqabət mühitinin mahiyyəti və xarakterik xüsusiyyətləri və rəqabət mühitinə təsir edən amillər tədqiq edilərək, təhlil edilmişdir.

İqtsadiyyat elminin rəqabətə baxışını iki kateqoriya ilə müəyyən etmək olar. Birincisi "saf və ya mükəmməl rəqabət" – burada bazarda olan məhsulun qiymətinə digər rəqiblərin təsiri mümkün olmur. İkincisi "azad inhisarçılıq" – burada isə bazara məhsul bir istehsalçı tərəfindən təklif olunur ki, bu da ona alıcıya istədiyi qiyməti deməyə imkan yaradır. İnhisarçılıq təklifə və təklif olunan məhsulun qiymətinə nəzarəti, məhsulu əvəzedici məhsulla bazardan sıxışdırıb çıxarmağı özündə əks etdirir.

İqtisadçı alim Çemberlinin fikirləri ilə razılaşsaq real bazarda "xalis rəqabətin", "xalis inhisarçılğın" deyil, "inhisarçı rəqabətin" əsas rol oynadığını görmək olar.

Əksər iqtisadçıların fikrincə, rəqabət və inhisarçılığı iqtisadi cərəyanın başqa formalarında görmək olar. Yəni, bazarda məhsul təklif edənlər (satanlar) çoxdur və bir-birindən asılı olmayan istehsalçılar, müəssisə, kooperativ və s. fəaliyyət göstərir və eyni zamanda alıcılar öz seçdikləri və qiymətinə daha çox üstünlük verərək razılaşdıqları məhsulları alırlar. Qeyd edək ki, keyfiyyət göstəricilərinə üstünlük vermək istehlakçıların alıcılıq qabiliyyətinin səviyyəsindən asılı olaraq müəyyən edilir.

Belə olan halda, hər bir istehsalçı çalışır ki, onun istehsal etdiyi məhsul analoji olaraq digər istehsalçının istehsal etdiyi məhsuldan hansısa cəhətlərinə (keyfiyyətinə, xarakteristikasına, qiymətinə və s.) görə fərqlənsin. Əgər istehsalçı məhsulunun istehsalında qarşıya qoyduğu məqsədə çatarsa, yəni, diferensial məhsul istehsal edə bilərsə, bu zaman o, bazarda inhisarçıya çevrilə bilər. Diferensial məhsul istehsalı öz keyfiyyətlərinə və texniki xüsusiyyətlərinə görə digər məhsullardan fərqlənir və alıcılar bu məhsullara istənilən qiyməti ödəməyə hazırdırlar. Bu isə öz növbəsində istehsalçıya öz istehsal sahələrini genişləndirmək imkanları açır və rəqiblərlə mübarizədə qiymət amilini əsas tutmağa və ya onu aşağı salmağa ehtiyac olmur.

İqtisadçı tədqiqatçılar müasir bazar mühitini bir-birinə oxşamayan dörd hissəyə bölürlər, “xalis rəqabət”, “xalis inhisarçılıq”, “inhisarçı rəqabət” və “oliqapolist rəqabət”.

*Xalis rəqabət* – eyni adlı məhsulu satan istehsalçı və ya müəssisələr arasında baş verir. Xalis rəqabət mühitində istehsalçı və istehlakçı bazarda baş verən dəyişikliklərdən asılı olur. Burada yüksək gəlir əldə etməyin yeganə yolu rəqiblərdən fərqli olaraq qabaqcıl texnologiyalardan istifadə etməkdir. Məsələn; kartof, taxıl və ya bostan məhsulları istehsalında qabaqcıl texnologiyalardan, elit toxumlardan, mineral gübrələrdən səmərəli və düzgün istifadə etməklə keyfiyyətli və yüksək məhsuldarlığı olan məhsul əldə etmək olar. Bu da istehsalçıya məhsulu həm aşağı qiymətə satmağa şərait yaradar, həm də keyfiyyətinə görə alıcını özünə cəlb edər. Belə olan halda xalis rəqabət mühiti yaranır və istehsalçı yüksək gəlir götürməklə, fəaliyyətindən razı qalır.

*Xalis inhisarçılıq* tamamlanmış rəqabətin əksidir. xalis inhisarçılığın aşağıdakı əlamətləri mövcuddur.:

- məhsulu bazara yeganə istehsalçı təklif edir;
- məhsul nadirdir, yəni tapılmır və əvəzedicisi yoxdur;
- istehsalçı ancaq öz məhsulunu satır və qiyməti özü diktə etməklə, bazara tam nəzarət edir;
- sahəyə girmək digər istehsalçı və vasitəçiyə qadağan olunur.

Bu şəkildə bazar ancaq yaşayış massivlərinə qaz, elektrik, kommunal və digər xidmətlərin göstərilməsi müqabilində baş verir. Belə bazarlarda qiymətlərə dövlətin müdaxiləsi var və bu bazarda baş verənlər dövlət tərəfindən izlənərək tənzimlənir.

*İnhisarçı rəqabət* isə əsasən pərakəndə satış ticarətində baş verir. Pərakəndə satış mərkəzləri eyni məhsulu bölgə üzrə satır, xidmət və əmək haqqı ödənişləri eynidir.

*Oliqopolist mühit* isə bu qeyd edilən mühitlərdən tam fərqlənir və onlardan yuxarıda durur. Bu mühitin əsas xüsusiyyətləri bazarda istehsalçıların məhdud sayda olmaları, oxşar məhsul istehsal etmələri, istehsal həcminin böyük olması və bazarlarda öz mövqe və paylarını qorumaları ilə fərqlənirlər. Bu mühitdə fəaliyyət göstərənlər əsasən avtomobil, spirtli içkilər, tütün məmulatları və s. istehsalçılarıdır.

Belə bazarlarda giriş başqa firmalar üçün bəzən bağlı olur. Eyni zamanda, belə bazarlarda qiymətlərə nəzarət məhdud olur, bəzən də qiymətlər danışıqlarla, sövdələşmələrlə müəyyən edilir. Bunun üçün hər bir ölkədə belə bazarlarda oliqopolistlərin fəaliyyətini izləmək üçün monitorinq aparan təşkilatlar fəaliyyət göstərir. Belə fəaliyyətin mənfi tərəfi onların beynəlxalq bazarlara təsiridir. Rəqabət mühitinə təsir edən amillərdən biri də

daxili sahələrarası rəqabət hesab olunur. Daxili sahələrarası rəqabət ayrı-ayrılıqda sahibkarların daxili sahələrin hər birindən gəlir əldə etməsidir.

Daxili rəqabət xırda istehsalçılar arasında məqsədli fəaliyyəti gücləndirir və rəqabətin başqa formalarından tez baş verir. Daxili rəqabət vasitəçilərin iştirakı ilə bazar qiymətləri ilə xarakterizə olunur və məhsula qiyməti bazar təyin edir. Əgər tələb təklif olunan məhsuldan çox olarsa məhsulun qiyməti bazarın müəyyən etdiyi qiymətdən yüksək olur və ya əksinə, təklif olunan məhsul tələbdən çox olarsa, məhsulun qiyməti bazar qiymətindən aşağı olur.

Azərbaycanın kənd təsərrüfatında sahələrarası rəqabət bir qədər idarə oluna bilmir. Belə ki, məhsul istehsalçıları tərəfindən bazarın, alıcıların öyrənilməsi aparılmadığından, hansı məhsula nə qədər tələbat olduğunu, nəyi bazara təklif edəcəkləri müəyyənləşdirilmədiyindən sahələrarası rəqabət kor-koranə aparılır. Yəni istehsalçı bu il kartof, soğan, taxıl və ya hər hansı məhsulu becərib bazara təklif etməklə, son nəticədə məhsulu sata bilməyəndə, gəliri az olanda, növbəti ildə bu məhsulun təkrarən becərilməsinə maraq göstərmir və digər sahəyə yenə təhlil aparmadan kapital qoyur. Bu isə aqrar islahatlar başlayandan (1996-cı ildən) demək olar ki hər il baş verdiyindən kənd təsərrüfatına marağın azalmasına və nəticədə bu sahənin səmərəsiz olması fikrinin formalaşmasına səbəb olur.

Sahələrdaxili rəqabət əlavə gəlir əldə etməklə bərabər innovasiyalardan istifadəni zəruri etməklə, istehsal xərclərinin azalmasını və məhsulun keyfiyyətinin artırılmasını zəruri edir. Nəzərə almaq lazımdır ki, sahələrarası daxili rəqabət gəlirlərin sahələr üzrə dəyişmə normasını inkar etmir. Bu problemi sahələrarası rəqabət həll edir ki, bu da daha gəlirli sahəyə kapital qoyuluşundan asılıdır.

Bazar iqtisadiyyatı şəraitində daxili ərzaq bazarının formalaşması aqrar-ərzaq kompleksində fəaliyyət göstərən müəssisə və təşkilatlar, eləcə də istehlakçılar arasında iqtisadi münasibətlərin mühüm tərkib hissəsi kimi çıxış edir. Ərzaq bazarı bütün dövrlərdə iqtisadi sistemin tipindən və xarakterindən asılı olmaqla, cəmiyyətdə mövcud olan dominant motivasiyaları özündə əks etdirmişdir. Belə ki, islahatlara qədər olan mərkəzləşdirilmiş sosialist iqtisadiyyatı şəraitində keçmiş ittifaqın ərzaq bazarı dövlətin daha çox müəyyənləşdirdiyi təminatlı qiymətlərlə tənzimlənmişdir. Bundan əlavə dövlət kənd təsərrüfatı məhsulları satışına bilavasitə nəzarət etməklə, əhalinin istehlakının təminatlı şəkildə formalaşmasına əlverişli şərait yaratmışdır. Bir sıra hallarda ərzaq məhsullarının son istehlakı kütləvi şəkildə dotasiyalaşdırılırdı ki, bu da cəmiyyətdə sosial sabitliyin qorunmasına xidmət edirdi.

Dissertasiya işinin **ikinci fəsli "Ərzaq bazarında rəqabət mühitinin yaradılmasının və onun tənzimlənməsinin mövcud vəziyyəti"** adlanır. Bu fəsildə ərzaq bazarında rəqabət mühitinin mövcud vəziyyəti, rəqabət mühitinə təsir edən iqtisadi amillərin mövcud vəziyyətinin qiymətləndirilməsi və rəqabətin tənzimlənməsinin mövcud vəziyyəti araşdırılaraq təhlil edilmişdir.

Tədqiqatlar göstərir ki, Azərbaycanın kənd təsərrüfatında çalışan əhalinin sayı Avropa və Mərkəzi Asiya ölkələrinin hər birində çalışan əhalinin sayından 7-8 dəfə çoxdur. Bu, ilk növbədə ölkəmizin aqrar ölkə olması, əhalinin 48%-nin kənd və rayonlarda yaşamasının və bu yaşayış məntəqələrində mövcud olmuş iş yerlərinin bağlanılması və əhalinin öz ehtiyaclarını ödəmək üçün pay torpaqlarında işləməsinə məcbur olmaları ilə bağlıdır. Kənd təsərrüfatında çalışan yeni mülkiyyət sahiblərinin öz məhsullarının tam sahibi olmaları onları bu işə həvəsləndirsə də əldə etdikləri gəlirlərin onların ehtiyac və tələbatını tam ödəməməsi bu sahəyə maraqlarının azalmasına səbəb olmuşdur. Kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirlərinin aşağı olmasının əsas səbəblərindən biri də onların rəqabətədavamlılığının aşağı olması və ərzaq bazarında rəqabət mühitinin tənzimlənməsinin yetərincə olmamasıdır.

Məhz bu baxımdan həyata keçirilən tədbirlər nəticəsində müəyyən problemlərin qismən də olsa öz həllini tapması daxili ərzaq bazarında rəqabət mühitinə müsbət təsir etmişdir. Davos Dünya İqtisadi forumunun "2012-2013 Qlobal Rəqabət qabiliyyətlilik İndeksi"nə görə Azərbaycan dünyada 46-cı, MDB məkanında isə 1-ci yerdə olmuşdur.

Ərzaq bazarında rəqabət mühitinin qorunmaması və lazımı səviyyədə dəstəklənməməsi istehlak mallarının və əhaliyə göstərilən xidmətlərin qiymətlərinin də diqtə olunmasına şərait yaratmışdır. İstehlak mallarının orta illik qiymətləri aşağıdakı cədvəldə (Cədvəl 1.) verilmişdir.

Bir sıra hallarda yeni təsərrüfat formalarının istehsal etdikləri məhsulun maya dəyərinin idxal olunan ərzaq məhsullarının satış qiymətinə bərabər və ya çox olması təsərrüfatların ağır duruma düşməsinə səbəb olur. Bundan başqa məhsulların keyfiyyət göstəricilərinin müvafiq standartlara uyğun gəlməməsi də məhsulların satışında əsas maneəyə çevrilmişdir. Belə məhsullardan taxıl məhsulunu göstərmək olar. Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən taxıl məhsullarının xüsusilə buğda məhsulunun keyfiyyət göstəricilərini əsas gətirərək yerli emal müəssisələrinin və dövlət ehtiyat fondunun bu məhsulu almasından imtina etmələri də yerli məhsulun rəqabətqabiliyyətli olmamasının bariz nümunəsidir.

**Cədvəl 1.**

**Bəzi istehlak mallarının orta illik qiymətləri (tarifləri), manatla**

| **Məhsulun adı** | **Ölçü vahidi** | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2015-ci ildə 2010 nisbətən artma azalma %** |
|---|---|---|---|---|---|---|---|---|
| Düyü | 1kq | 1,56 | 1,55 | 1,54 | 1,53 | 1,71 | 1,80 | 115,3 |
| Un və digər yarmalar | -//- | 1,14 | 1,55 | 1,48 | 1,42 | 1,44 | 1,50 | 131,6 |
| Makaron məmulatları | -//- | 1,45 | 1,51 | 1,50 | 1,49 | 1,50 | 1,52 | 104,8 |
| Mal əti | -//- | 6,62 | 7,86 | 8,66 | 8,79 | 8,90 | 9,0 | 135,9 |
| Qoyun əti | -//- | 6,56 | 7,60 | 8,60 | 9,03 | 9,33 | 9,35 | 142,5 |
| Quş əti | -//- | 3,07 | 3,10 | 3,09 | 3,09 | 3,10 | 3,21 | 104,6 |
| Təzə balıq | -//- | 5,85 | 5,87 | 5,54 | 5,68 | 6,28 | 6,48 | 110,8 |
| Süd | 1 litr | 1,21 | 1,21 | 1,26 | 1,21 | 1,18 | 1,15 | 95,0 |
| Pendir və şor | 1kq | 4,71 | 5,02 | 5,17 | 5,26 | 5,77 | 6,0 | 127,4 |
| Yumurta | 10 ədəd | 1,19 | 1,31 | 1,01 | 1,10 | 1,12 | 1,13 | 94,9 |
| Kərə yağı | 1kq | 5,54 | 6,11 | 6,13 | 6,12 | 6,81 | 6,87 | 124,0 |
| Marqarin | -//- | 2,22 | 2,43 | 2,53 | 2,49 | 2,47 | 2,50 | 112,6 |
| Bitki yağları | 1 litr | 3,59 | 3,89 | 3,94 | 3,87 | 3,79 | 3,87 | 107,8 |
| Təzə və dondurulmuş tərəvəzlər | -//- | 1,16 | 1,23 | 1,37 | 1,33 | 1,37 | 1,45 | 125,0 |
| Kartof | -//- | 0,63 | 0,73 | 0,54 | 0,63 | 0,89 | 0,81 | 128,6 |
| Şəkər və şəkər tozu | 1,08 | 1,26 | 1,26 | 1,21 | 1,21 | 1,19 | 1,25 | 99,2 |

Araşdırma və müşahidələrimizin təhlili göstərir ki, ərzaq bazarında rəqabətqabiliyyətinin aşağı olmasına aşağıdakı amillər birbaşa təsir edir:

- Kənd təsərrüfatı məhsullarının məhsuldarlığının aşağı olması;
- İstehsal olunan məhsulun saxlanılması və qablaşdırılmasının tələb olunan beynəlxalq standartlara cavab verməməsi;
- İstehsal olunan məhsulların istehlakçıya çatdırılması və daşınması infrastrukturlarının bərbad olması;
- İstehsalçının bazara birbaşa çıxışının zəif olması;
- İstehsal olunan məhsulların tez xarab olması və xəstəliklərə tutulma ehtimalının yüksək olması;
- Daxili bazarın qorunmaması;
- Kənd təsərrüfatı məhsullarına ayrılan kreditlərin verilmə mexanizminin düzgün olmaması;
- Qeyri kənd təsərrüfatı infrastrukturunun inkişaf etdirilməməsi;

- Kəndlərdə əlavə iş yerlərinin olmaması və işçi qüvvəsindən səmərəli istifadə olunmaması və s.

Qeyd edək ki, kənd təsərrüfatı məhsullarının məhsuldarlığı istehsal olunan məhsulun rəqabətqabiliyyətli olmasına birbaşa təsir edən amildir və məhsuldarlığın artırılması yuxarıda qeyd edilən amillərdən də asılıdır.

Statistik məlumatların təhlili göstərir ki, 2000-ci ilə nisbətən 2015-ci ildə dənli və dənli paxlalıların və digər ərzaq məhsullarının istehsalı 2.5 dəfəyə qədər yüksəlmişdir. Məhsul istehsalının artmasına baxmayaraq, məhsuldarlıqda artma və azalmalar baş verir və məhsul istehsalı ilə məhsuldarlıq arasında olan artım bir-birini tamamlamır. Belə ki, 2000-ci ilə nisbətən 2015-ci ildə dənli və dənli paxlalıların istehsalı 54,7% artdığı halda, məhsuldarlıq 0,8% artmışdır. 2010-cu ildə isə məhsul istehsalı 29,9% artmasına baxmayaraq, məhsuldarlıq 13,0% azalmışdır. Bu cür uyğunsuzluqlar digər ərzaq məhsulları istehsalında da mövcuddur.

Qeyd edək ki, 2010-cu ildə Rusiyada taxıl istehsalının qıtlığı, 2011-ci ildə Qazaxıstanda ictimai-siyasi gərginliklə bağlı bizim ölkədə də ərzaq təhlükəsizliyi ilə, xüsusən də taxıl idxalı ilə bağlı narahatçılıq yaranmışdır. Araşdırmalar göstərir, hər hektardan 35 sentner məhsul əldə etmək heç də pis göstərici deyildir. Amma biz ölkəyə taxılı əsasən Rusiya və Qazaxıstan dövlətlərindən idxal etməklə əhalinin ərzaq məhsullarına olan tələbatını və ölkəmizin ərzaq təhlükəsizliyini təmin edirik.

Azərbaycan və buğda idxal etdiyimiz Rusiya və Qazaxıstan dövlətlərində buğda istehsalında məhsuldarlığın inkişaf dinamikası aşğıdakı cədvəldə (Cədvəl 2.) verilmişdir.

**Cədvəl 2.**

**Azərbaycan və MDB dövlətlərində buğdanın məhsuldarlığının inkişaf dinamikası, sen/ha.**

| **Göstəricilər** | **Ölçü vahidi** | **2000** | **2009** | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | s/h | 23,8 | 26,6 | 20,7 | 25,4 | 27,2 | 27,5 | 24,0 | 31,5 |
| Qazaxıstan | s/h | 9 | 11,9 | 7,3 | 16,4 | 4,8 | 15,6 | 11,6 | 12,6 |
| Rusiya | s/h | 17,5 | 23,1 | 18,3 | 25,4 | 14,5 | 20,8 | 23,6 | 21,7 |
| Rusiyaya nisbətən, Azərbaycanda | % | +35,4 | +14,7 | +8,7 | - | +87,6 | +32,2 | +1,6 | 45,2 |
| Qazaxıstana nisbətən, Azərbaycanda | % | 2,6 d | +14,7 | 2,7 d | +53,0 | 5,7 d | +76,2 | 2,1 d | 2,5 d |

Cədvəl məlumatlarından göründüyü kimi, Azərbaycanda buğdanın məhsuldarlığı Rusiya və Qazaxıstana nisbətən daha yüksəkdir. Belə ki, Rusiya Federasiyasına nisbətən Azərbaycanda buğdanın məhsuldarlığı 2000-

ci ildə 35,4%, 2009-cu ildə 14,7%, 2010-cu ildə 8,7%, 2011-ci ildə eyni səviyyədə olmuş, 2012-ci ildə 87,6%, 2013-cü ildə 32,2% və 2014-cü ildə 3,6%, 2015-ci ildə isə 45,2% çox olmuşdur. Müvafiq illər üzrə Qazaxıstanla müqayisədə bu göstərici 2,6 dəfə, 14,7%, 2,7 dəfə, 53,0%, 2,7 dəfə, 53%, 5,7 dəfə, 76,2% , 2,1 və 2,5 dəfə çox olmuşdur.

Araşdırmalar göstərir ki, Rusiya və Qazaxıstanda taxıl əsasən dəmyə şəraitində yetişdirilir və ərazisi geniş olduğundan məhsul istehsalı daha çox olur, eyni zamanda torpaq sahələrinin geniş olması və dəmyə şəraitində yetişdirmək üçün çəkilən xərclərin aşağı olmasına şərait yaradır.

MDB dövlətləri olan Rusiya Federasiyası, Qazaxıstan və Azərbaycanda bir nəfərə düşən ərzaq məhsulları istehsalı aşağıdakı cədvəldə (Cədvəl 3.) verilmişdir.

**Cədvəl 3.**

**Rusiya, Qazaxstan və Azərbaycanda bir nəfərə düşən ərzaq məhsulları istehsalının inkişaf dinamikası, kq-la**

| **Göstəricilər** | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** |
|---|---|---|---|---|---|---|
| **1.Azərbaycan**<br>Taxıl (təmiz çəkidə) | 218 | 265 | 298 | 310 | 247 | 307 |
| Şəkər çuğunduru | 28 | 28 | 18 | 20 | 18 | 19 |
| Kartof | 107 | 104 | 106 | 107 | 87 | 88 |
| Tərəvəz | 133 | 134 | 133 | 133 | 126 | 134 |
| Meyvə və giləmeyvə | 79 | 82 | 85 | 88 | 87 | 89 |
| Ət istehsalı (kəsilmiş çəkidə) | 27 | 28 | 30 | 31 | 31 | 31 |
| Süd istehsalı | 172 | 179 | 187 | 189,6 | 197 | 202 |
| Yumurta istehsalı (ədəd) | 132 | 112 | 134 | 151 | 166 | 163 |
| **2.Rusiya**<br>Taxıl (təmiz çəkidə) | 426 | 657 | 494 | 644 | 721 | 714 |
| Şəkər çuğunduru | 142 | 298 | 284 | 246 | 211 | 235 |
| Kartof | 148 | 228 | 205 | 210 | 216 | 230 |
| Tərəvəz | 85 | 103 | 102 | 112 | 116 | 110 |
| Meyvə və giləmeyvə | 15 | 18 | 19 | 20 | 21 | 20 |
| Ət istehsalı (kəsilmiş çəkidə) | 50 | 52 | 56 | 60 | 62 | 65 |
| Süd istehsalı | 223 | 222 | 223 | 213 | 211 | 210 |
| Yumurta istehsalı (ədəd) | 284 | 287 | 293 | 288 | 287 | 290 |
| **3.Qazaxıstan**<br>Taxıl (təmiz çəkidə) | 747 | 1628 | 766 | 1070 | 993 | 1064 |
| Şəkər çuğunduru | 9 | 12 | 9 | 4 | 1 | 10 |
| Kartof | 157 | 186 | 186 | 196 | 197 | 201 |
| Tərəvəz | 158 | 174 | 182 | 291 | 201 | 203 |
| Meyvə və giləmeyvə | 10 | 11 | 12 | 13 | 13 | 12 |
| Ət istehsalı (kəsilmiş çəkidə) | 57 | 57 | 56 | 51 | 52 | 53 |
| Süd istehsalı | 330 | 313 | 286 | 289 | 274 | 293 |
| Yumurta istehsalı | 228 | 223 | 217 | 229 | 248 | 269 |

Cədvəl məlumatlarından göründüyü kimi ərzaq mənşəli kənd təsərrüfatı məhsulları istehsalında Azərbaycan Rusiya Federasiyasından və Qazaxıstandan geridə qalır. Bunun əsas səbəbi şübhəsiz ki, əkin sahələrinin həcmindən çox asılıdır. Eyni zamanda, məhsuldarlıq da burada mühüm rol oynayır. Qeyd edək ki, taxıl istehsalında Azərbaycanda məhsuldarlıq yüksək olsa da, əkin sahəsi baxımından istehsal həcmi müqayisə olunan dövlətlərdə daha çoxdur. Məhsul həcminin çoxluğu baxımından bu dövlətlərdə istehsal olunan taxıl məhsulu xüsusən də buğda məhsulu Azərbaycan bazarına və sahibkarlarının fəaliyyətinə mənfi təsir göstərir.

Azərbaycanda bir nəfərə istehsal olunan kənd təsərrüfatı mənşəli ərzaq məhsullarının Rusiya Federasiyası və Qazaxıstanla müqayisəsi aşağıdakı cədvəldə (Cədvəl 4.) verilmişdir.

**Cədvəl 4.**

**Rusiya və Qazaxıstanda bir nəfərə düşən kənd təsərrüfatı mənşəli ərzaq məhsulları istehsalının Azərbaycanla müqayisədə inkişaf dinamikası,%-lə**

| Göstəricilər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|
| **1.Rusiyada Azərbaycana nisbətən** | | | | | | |
| Taxıl (təmiz çəkidə | 95,4 | 2,5 dəfə | 65,8 | 2,1 dəfə | 2,9 dəfə | 2,3 dəfə |
| Şəkər çuğunduru | 5,3 d | 10,3 d | 15,1 d | 13,8 d | 12,6 d | 12,4 d |
| Kartof | 38,3 | 2,2 dəfə | 93,4 | 2,0 dəfə | 2,5 dəfə | 2,6 dəfə |
| Tərəvəz | -36,1 | -23,1 | -23,3 | -36,3 | -31,7 | -17,9 |
| Meyvə və giləmeyvə | -5,3 d | -4,5 d | -78,8 | -73,4 | -72,9 | -77,5 |
| Ət istehsalı (kəsilmiş çəkidə) | 78,6 | 79,3 | 80,6 | 14,3 | 17,6 | 2,1 dəfə |
| Süd istehsalı | 29,6 | 24,0 | 19,3 | 12,3 | 7,1 | +3,6 |
| Yumurta istehsalı | 2,1 d | 2,6 d | 2,2 d | 94,6 | 76,1 | +77,9 |
| **2.Qazaxıstanda Azərbaycana nisbətən** | | | | | | |
| Taxıl (təmiz çəkidə) | 3,4 dəfə | 2,6 dəfə | 2,6 dəfə | 3,4 dəfə | 4,1dəfə | 3,5 dəfə |
| Şəkər çuğunduru | -3,1 dəfə | -2,3 dəfə | -50 | - 5 dəfə | - 18 dəfə | -47,3 |
| Kartof | 46,7 | 78,8 | 75,5 | 87,2 | 2,2 dəfə | 2,3 dəfə |
| Tərəvəz | 18,7 | 29,8 | 36,8 | 65,5 | +59,5 | +51,4 |
| Meyvə və giləmeyvə | -7,9 dəfə | -7,4 dəfə | - 7,0dəf | -6,7 dəfə | -6,7 dəfə | -7,4 dəfə |
| Ət istehsalı (kəsilmiş çəkidə) | 2,1 dəfə | 2,0 dəfə | +86,6 | +64,5 | +67,7 | +71,0 |
| Süd istehsalı | +91,8 | +74,9 | +52,9 | +52,4 | 39,1 | +45,0 |
| Yumurta istehsalı | +72,7 | 2,0 dəfə | +61,9 | +54,7 | +51,5 | +65,0 |

Aparılan hesablamalar göstərir ki, Rusiya Federasiyası ilə müqayisədə Azərbaycanda bir nəfərə düşən kənd təsərrüfatı mənşəli ərzaq məhsulları tərəvəz, meyvə və giləmeyvə istisna olmaqla, Qazaxıstan Respublikası ilə müqayisədə isə meyvə və giləmeyvə istisna olmaqla, xeyli səviyyədə aşağıdır. Belə ki, Rusiya Federasiyasında bir nəfərə düşən taxıl (təmiz çəkidə) Azərbaycandan 2000-ci illə müqayisədə 2010-cu ildə 95,4% və 2011-ci ildə 2,5 dəfə, 2012-ci ildə 65,8%, 2013-cü ildə 2,1 dəfə, 2014-cü ildə 2,9 dəfə, 2015-ci ildə isə 2,3 dəfə çox olmuşdur.

İkinci çörək kimi qəbul edilən kartof məhsulu da həmin illər üzrə müvafiq olaraq 38,3%; 2,2 dəfə, 93,4%; 2 dəfə, 2,5 dəfə və 2,6 çox olmuşdur. Eyni zamanda ət istehsalı kəsilmiş çəkidə 78,6%; 79,3%; 80,6%; 14,3%, 17,6% və 2,1 dəfə, süd istehsalı 29,6%; 24,0%; 19,3; 12,3%, 7,1% və 3,6%, yumurta istehsalı 2,1 dəfə, 2,6 dəfə, 2,2 dəfə, 94,6%, 76,1 % və 77,9% çox olmuşdur.

Qazaxstanda hər nəfərə düşən taxıl istehsalı (təmiz çəkidə) 2010 -cu ildə 3,4 dəfə və 2011 -ci ildə 2,6 dəfə, 2012 -ci ildə 2,6 dəfə, 2013 -cü ildə 3,6 dəfə, 2014 -cü ildə 4,1 dəfə və 2015 -ci ildə isə 3,5 dəfə Azərbaycandan çox olmuşdur. Kartof istehsalı da müvafiq illər üzrə 46,7%; 78,8%; 75,5%; 87,2%; 2,2 dəfə və 2,3 dəfə Azərbaycandan çox olmuşdur. Müvafiq illər üzrə ət istehsalı (kəsilmiş çəkidə) 2,1 dəfə, 2,0 dəfə, 86,6%; 64,5%; 67,7% və 71,0% çox olmuşdur. Süd istehsalı 91,8%, 74,9%; 52,9%, 52,4%, 39,1% və 45,0%, yumurta istehsalı 72,7%; 2,0 dəfə, 61,9%; 54,7%; 51,5% və 65,0% çox olmuşdur.

Aparılan hesablamalar və müqayisə təhlili göstərir ki, məhsul istehsalının artımı əsasən əkin sahələrinin geniş olması ilə bağlıdır. Bundan başqa heyvandarlıq məhsulunda Rusiya Federasiyasında donuzçuluğun inkişafı, Qazaxıstan Respublikasında donuzçuluq və atçılığın inkişafı böyük rol oynayır. Təbiidir ki, mentalitetə uyğun olaraq Azərbaycanda bu heyvanların ətinə tələbat olduqca aşağıdır və bu heyvanların məhsullarının idxalına ehtiyac da yoxdur. Hal-hazırda bu dövlətlərdən ölkəmizə əsas buğda idxalına üstünlük verilir ki, bu da öz növbəsində yerli buğda istehsalçılarını daxili bazarda sıxışdıraraq rəqabəti udmuş olur.

Dissertasiya işinin **üçüncü fəsli "Ərzaq bazarında azad rəqabət mühitinin yaradılması və tənzimlənməsi yolları"** adlanır. Bu fəsildə ərzaq bazarında azad rəqabət mühitinin yaxşılaşdırılması, rəqabət mühitinin iqtisadi vasitələrlə tənzimlənməsi və azad rəqabət mühitinin dövlət tənzimlənməsi məsələləri öyrənilmişdir.

Aqrar sahənin inkişaf etdirilməsi və bu sahədə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi sahibkarların və onların daxili ərzaq bazarına təklif edəcəkləri məhsulun növ sayından, çeşidindən və miqdarından birbaşa

asılıdır. Daxili ərzaq bazarının rəqabətədavamlılığını artırmaq və xarici təsirdən qorumaq üçün bu problemə iki aspektdən yanaşmaq olar. Birincisi - sosial aspektdən, ikincisi - iqtisadi aspektdən. Sosial aspektdən yanaşdıqda məhsulun rəqabətqabiliyyətinin artırılması üçün istehsalçının normal həyat şəraitinin təmin olunmasında xüsusi əhəmiyyət kəsb edən sosial problemlərin həlli, kadr hazırlığı, hər bir sahədə olduğu kimi aqrar sahədə də elmin, kadrların bilik və bacarıqlarının rəqabətə davamlı olması vacibdir.

İqtisadi aspektdən yanaşdıqda isə istehsal olunan məhsulun kəmiyyət və keyfiyyət göstəricilərinin, istehsal xərclərinin rəqabətə davamlı olmasının xüsusi iqtisadi əhəmiyyəti vardır.

Məlumdur ki, hər hansı bir formada iqtisadi fəaliyyətin mərkəzində iqtisadi maraq dayanır. Eyni zamanda, istənilən fəaliyyətdə iqtisadi maraqla bərabər mənəvi zövq də yer alır. Yəni sahibkar qanunun icazə verdiyi formada fəaliyyətlə məşğul olur. O, öz seçdiyi fəaliyyət istiqamətini sevir və bu fəaliyyəti həvəslə yerinə yetirir.

Ərzaq bazarında məhsulların rəqabət qabiliyyətini qorumaq üçün ilk növbədə məhsuldarlığın artırılmasını və məhsul istehsalına çəkilən xərclərin azaldılmasını təmin etmək tələb olunur. Bunun üçün iqtisadi vasitələrdən istifadənin təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, məhsuldarlığın artırılmasında elit toxumlardan, tinglərdən, cins mal-qaradan istifadə, torpaqların keyfiyyətinin yaxşılaşdırılması əsas və başlıca şərtlərdəndir. Məlumdur ki, bu işlərin yerinə yetirilməsinə əlavə vəsait qoyuluşu tələb olunur. Araşdırmalar göstərir ki, xaricdən gətirilən resurslar ölkəyə daxil olduqdan sonra sahibkarlara kredit və lizinq yolu ilə verilir. Eyni zamanda, sahibkara istehsal prosesində istifadə olunan resursların əldə edilməsində, istehsal və satış prosesində mövcud olan xidmət sahələrinin xidmətindən istifadə etdikdə əlavə vəsait tələb olunur.

Bu proses rayon mərkəzlərindən 10 kilometrdən uzaq olan kəndlərdə, ucqar dağ kəndlərində özünü daha qabarıq büruzə verir. Araşdırmalar göstərir ki, qeyd olunan ərazilərdən əmək qabiliyyətli insanlar, gənclər, cavanlar daha doğrusu 18-50 yaş arasında olan insanlar rayon mərkəzlərinə, iri şəhərlərə və xarici ölkələrə, daha çox Rusiya, Türkiyə və Qazaxıstana üz tutmalı olurlar.

Kənd təsərrüfatı məhsullarının istehsalı üçün verilən subsidiyalar qismən bu prossesin dayanması istiqamətində kömək etsə də, mövcüd problem tam həllini tapmamışdır.

Ərzaq bazarında rəqabət mühitinin tənzimlənməsi və antiinhisar qanunvericiliyinin tətbiq edilməsi ilə bağlı həyata keçirilən tədbirlər sistemində ərzaq bazarının bir sıra seqmentləri üzrə qiymətlərin liberallaşdırılmasını əhatə edən müvafiq qiymət siyasətinin reallaşdırılması

da mühüm rol oynayır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, xüsusilə ərzaq bazarlarında böhranlı tendensiyalar, yəni qiymətlərin kəskin artımı və həmin artımın daxili və xarici mühit amillərindən qaynaqlandığı şəraitdə dövlət tərəfindən zəruri iqtisadi tənzimlənmə vasitələri də hərəkətə gətirilir. Bu tədbirlər, ilk növbədə, daha çox qısamüddətli xarakter daşıyır. Lakin bununla belə, ərzaq bazarının süni qiymət artımından mühafizə edilməsi ilə bağlı orta və uzunmüddətli antiinhisar tənzimlənmə siyasəti də həyata keçirilir ki, bu siyasətin prioritet istiqamətlərinə aşağıdakılar şamil edilir:

- ərzaq bazarında azad rəqabət mühitinin stimullaşdırılması;
- daxili ərzaq bazarına xarici istehsalçıların buraxılmasına nəzarət;
- istehsalçı strukturların stimullaşdırılması üzrə tədbirlərin həyata keçirilməsi;
- bu sistemə maliyyə, vergi, kredit mexanizmi ilə bağlı stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi;
- ərzaq bazarında inhisarçılığa qarşı fəaliyyət göstərə bilən strukturların həvəsləndirilməsi.

Ərzaq bazarında rəqabət mühitinin tənzimlənməsi ilə bağlı dövlət tərəfindən həyata keçirilən tədbirlər, ilk növbədə, ayrı-ayrı təsərrüfat qurumlarının, xüsusilə yeni sahibkarlıq qurumlarının ərzaq bazarına daxil olmasının stimullaşdırılmasına istiqamətlənir ki, bu da nəticə etibarı ilə, xüsusilə xaricdən gətirilən məhsulların inhisarçılığı sferasında inhisarçılıq meyillərinin dağılmasına xidmət edir. Bu tədbirlər içərsində, ilk növbədə, mövcud ərzaq bazarına daxil olan mülkiyyət mənsubiyyətindən asılı olmayaraq, təsərrüfat subyektlərinə kredit və güzəştlərin tətbiqi şamil edilir. Bundan əlavə, böhranlı situasiyalarda ərzaq bazarının tənzimlənmə və fiksasiya edilmiş qiymətlər sistemindən istifadə edilir ki, bu sistem də ilk növbədə, istehlakçıların təxminən orta rentabellik səviyyəsi hədlərində gəlir əldə etmələrinə əlverişli şərait yaradır.

Tədqiqatlar göstərir ki, kənd təsərrüfatında fəaliyyət göstərən özəl təsərrüfatların optimal ölçüləri çox kiçik olduğundan onların kredit və ya lizinq yolu ilə əldə etdikləri resurslardan istifadə, eyni zamanda bankdan kredit götürmələri heç də səmərəli olmur. Belə ki, özəl təsərrüfatlar maksimum səviyyədə çalışırlar ki, lizinq və kreditləri ödəsinlər. Onların əldə etdikləri gəlirlər isə bu xərcləri ödəməyə bəzən heç çatmır. Sahibkarların və ya özəl təsərrüfatların gəlirlərinin aşağı olmasının bir səbəbi də məhsulların satışının düzgün təşkil olunmamasıdır. Belə olan halda gəlirləri azalan təsərrüfat sahibləri öz fəaliyyətlərini məhdudlaşdırır və ya tamamilə dayandıraraq qeyri kənd təsərrüfatı sahələrinə üz tuturlar.

Regionlarda aparılan sorğuların təhlili göstərir ki, kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinə həvəslə başlayan sahibkar qarşılaşdığı problemləri

həll edə bilmədiyindən və fəaliyyəti müqabilində iqtisadi maraqları tam təmin olunmadığından, o, öz fəaliyyətini tamamilə dayandırmış olur və ya öz ailə ehtiyaclarını ödəmək üçün məhsul istehsal etməklə qeyri-kənd təsərrüfatı fəaliyyətinə üstünlük verir. Aparılan sorğuların təhlili göstərir ki, rayon mərkəzlərindən 10 kilometr məsafədən yuxarı ərazilərdə yaşayan kənd əhalisinin, xüsusən də dağlıq ərazilərdə yaşayan kəndlilərin təsərrüfat fəaliyyətlərindəki problemlər daha çoxdur. Belə ki, sahibkar, ailə təsərrüfatı və ya özəl təsərrüfat kimi fəaliyyət göstərən kəndlilərin öz kənd təsərrüfatı məhsulları istehsalından əldə etdikləri gəlirlərin aşağı səviyyədə olması, bu kəndlərdə əlavə iş yerlərinin olmaması, sosial infrastrukturların, magistral yollara və rayon mərkəzlərinə gedən yolların bərbad olması və s digər amillər məhsul istehsalında ciddi maneələr yaradır. Belə kəndlərdə kənd təsərrüfatında məhsul istehsalına maraq azalır və bu amillərin təsiri nəticəsində yaranmış psixoloji durum, o cümlədən bu formada fəaliyyətin iqtisadi göstəricilərinin təhlili yaxşı gələcəyə inamı azaldır ki, bu da öz növbəsində məhsuldarlığa, maya dəyərinə və gəlirlərin artırılması cəhdlərinə ciddi təsir edir. Belə bir şəraitdə istehsal olunan məhsulun rəaqbətə davamlı olması da real görünmür.

Qeyd etmək lazımdır ki, "Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı dövlət proqram"ında ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına səmərəli inteqrasiyasını təmin etmək üçün dövlətin xarici ticarət siyasətində qeyri-neft məhsullarının ixracının genişləndirilməsi prioritet istiqamətlər kimi qəbul olunmuşdur. Bununla əlaqədar 2014-2018-ci illərdə aşağıdakı tədbirlərin həyata keçirilməsi mühüm vəzifələrdən hesab olunmuşdur:

- regionların inkişafında böyük rolu olan kənd təsərrüfatı və emalı məhsullarının hədəf bazarlara çıxış imkanlarının araşdırılması və artırılması istiqamətində müvafiq tədbirlərin görülməsi;
- regionlarda fəaliyyət göstərən sahibkarların ixrac imkanlarının genişləndirilməsi üçün mütəmadi tədbirlərin davam etdirilməsi;
- milli istehsalçıların xarici bazarlarda mövqelərinin möhkəmləndirilməsi, maraqlarının müdafiəsinin gücləndirilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi;
- xarici ticarətin inkişafı üçün infrastruktur təminatının daha da yaxşılaşdırılması və təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi;
- Azərbaycan mənşəli məhsulların dünya bazarlarına çıxış imkanlarının artırılması məqsədilə ixracatçı müəssisələrin beynəlxalq sərgi və yarmarkalarda iştirakının stimullaşdırılması;

- ixracatda elektron ticarət xidmətlərindən geniş istifadə imkanlarının araşdırılması və inkişaf etdirilməsi istiqamətində müvafiq işlərin görülməsi;
- ixrac edilən və ixrac potensialı olan məhsulların keyfiyyət standartlarının yüksəldilməsi və bu istiqamətdə beynəlxalq standartlara uyğun məhsul istehsal edən müəssisələrin stimullaşdırılması və milli brendlərin yaradılmasının dəstəklənməsi.

Məhz bu baxımdan, ölkəmizdə ərzaq bazarında rəqabət mühütinin tənzimlənməsi istiqamətində bir sıra zəruri tədbirlərin həyata keçirilməsinə xüsusi ehtiyac vardır. Bu, ilk növbədə iqtisadiyyatın az gəlirli və eləcə də təbii-iqlim şəraitindən asılı olan sahələrində, məsələn, kənd təsərrüfatında müxtəlif mülkiyyət mənsubiyyətli əmtəə istehsalçılarının istifadə etdikləri təbii inhisar məhsulları və xidmətlərinin qiymətlərinin tənzimlənməsinə yönəldilmiş fəaliyyəti özündə əks etdirə bilər. Belə ki, son illərdə respublikamızda istixanaların inkişaf etdirilməsində xeyli irəliləyişlər olmuş və bu Gəncə-Qazax iqtisadi rayonunda daha çox müşahidə edilir.

Beləliklə, yuxarıda qeyd etdiklərimizi ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, ərzaq bazarının dövlət tərəfindən iqtisadi və digər vasitələrlə tənzimlənməsinin sürətləndirilməsi, eyni zamanda kənd təsərrüfatı məhsulları istehsalının, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması və daxili bazarın qorunması bazar iqtisadiyyatı şəraitində rəqabət mühitinin formalaşdırılması və qorunmasında mühüm əhəmiyyət kəsb edir.

Dissertasiya işinin sonunda əldə edilən nəticələr, elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr verilmişdir.

**Dissertasiya işinin mövzusu ilə bağlı müəllifin aşağıdakı elmi məqalələri dərc edilmişdir:**

1. "Rəqabət mühitinə təsir edən amillər". Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm Mərkəzi, Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitunun 50 İllik Yubileyinə Həsr Olunmuş "Aqrar İqtisadiyyatın Aktual Problemləri" mövzusunda Beynəlxalq Elmi-Praktik Konfransın materialları. Bakı, 2012-ci il, səh. 257-259.
2. "Ərzaq bazarında rəqabət mühitinin formalaşdırılması". Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitunun Elmi Əsərləri. Bakı, 2012 / 2, səh. 89-92.
3. "Улучшение Условий Свободной Конкуренции На Продовольственном Рынке". Международный технико-экономический журнал. Москва, 2013 / 4, стр.11-15.

4. “Rəqabət Mühitinin İqtisadi Vasitələrlə Tənzimlənməsi”. Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri. Bakı, 2013 / 36, səh. 140-148.
5. “Daxili Ərzaq Bazarında Rəqabət Mühitinin Dövlət Tənzimlənməsinin İstiqamətləri”. Azərbaycan Aqrar Elmi (elmi-nəzəri jurnal). Bakı, 2014 / 3, səh. 121-125.
6. “Kənd Təsərrüfatı Məhsulları İstehsalının İntensiv İnkişafının İqtisadi Əhəmiyyəti”. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitunun Elmi Əsərləri. Bakı , 2016 / 2, səh 58-62.
7. “Heyvandarlıq Sahəsinin İntensiv İnkişafının İqtisadi Əhəmiyyəti” Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitunun Elmi Əsərləri. Bakı, 2016 / 4, səh. 30-33.

**Махмудов Самир Иманверди оглы**

## Конкурентная среда на продовольственном рынке и проблемы его защиты

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы. Во-введении обосновывается актуальность темы, степень ее изученности, определяется цель и задачи, научная новизна и практическая значимость исследования.

В первой главе диссертации исследованы «Теоретические основы регулирования конкурентной среды на продовольственном рынке». В этой главе изучены и проанализированы сущность и характерные особенности конкурентоспособной среды на продовольственном рынке. Здесь также дан анализ теоретических вопросов защиты конкурентной среды и роли развития производства на продовольственном рынке.

Во второй главе диссертации изучены вопросы «Современное состояние создания конкурентной среды на продовольственном рынке продукции и его регулирования». В этой главе исследовано нынешнее состояние конкурентной среды на продовольственном рынке, оценена состояние экономических фактов, воздействующих на конкурентную среду и результатов исследований в направлении регулирования конкуренции.

В третьей главе диссертации исследовано «Пути создания и совершенствования свободной конкурентной среды». В этой главе проанализированы пути улучшения среды свободной конкуренции на продовольственном рынке, направления регулирования конкурентной среды экономическими средствами и направления совершенствования государственного регулирования среды свободной конкуренции на этом рынке.

В заключении диссертации сформулированы основные выводы и предложения, полученные в результате исследования.

**Makhmudov Samir Imanverdi**

## Competitive environment in the product market and problems of its protection

### SUMMARY

The thesis consists of an introduction, three chapters, a conclusion and a list of used literature. In the introduction, the relevance of the topic, the degree of its study, the goal and tasks, the scientific novelty and practical significance of the study are substantiated.

In the first chapter of the thesis "Theoretical bases of regulation of the competitive environment in the product market" is investigated. In this chapter, the essence and characteristics of a competitive environment in the product market have been studied and analyzed. The theoretical issues of protection of the competitive environment in the product market and the role of production development are analyzed.

In the second chapter of the thesis the issues of "The current state of creating a competitive environment in the product market and its regulation" is investigated. This chapter investigates the current state of the competitive environment in the product market, assesses the current state of economic facts affecting the competitive environment and the current state of research results in the direction of competition regulation.

In the third chapter of the thesis "The creation of a free competitive environment in the product market and ways to improve it" is investigated. This chapter analyzes the ways to improve the environment of free competition in the product market, the direction of regulating the competitive environment by economic means, and the direction of improving state regulation of the environment of free competition in the product market.

In the conclusion of the dissertation, the main conclusions and proposals obtained as a result of the research are formulated.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Самир Иманверди оглы Махмудов**

# КОНКУРЕНТНАЯ СРЕДА НА ПРОДОВОЛЬСТВЕННОМ РЫНКЕ И ПРОБЛЕМЫ ЕГО ЗАЩИТЫ

5312.01 – «Отраслевая экономика»

**АВТОРЕФЕРАТ**

диссертации на соискание научной степени
доктора философии по экономике

**Баку - 2017**